# Şeytan, sizdən birinizə gələrək "bunu kim yaratdı, onu kim yaratdı? suallarını verər və ən son olaraq "Sənin Rəbbini kim yaratdı?" sualını ortaya atar. Kim belə bir vəziyyətlə qarşılaşarsa, Allaha sığınsın və bu vəsvəsələrə son qoysun

Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət edilidyində görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: "Şeytan, sizdən birinizə gələrək "bunu kim yaratdı, onu kim yaratdı? suallarını verər və ən son olaraq "Sənin Rəbbini kim yaratdı?" sualını ortaya atar. Kim belə bir vəziyyətlə qarşılaşarsa, Allaha sığınsın və bu vəsvəsələrə son qoysun."
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) şeytanın möminə vəsvəsə olaraq fısıldadığı sualların təsiredici əlacı haqda xəbər vermişdir. Şeytan "Bunu kim yaratdı? Onu kim yaratdı? Səmanı kim yaratdı? Yeri kim yaratdı?" kimi suallar verər. Mömin, dini, fitrəti və ağlı ilə şeytanın bu suallaına "Allah" deyə cavab verir. Şeytan bu vəsvəsələrinə son qoymaz, davam edər və "Rəbbini kim yaratdı?" sualını verər Bu halda mömin vəsvəsələri üç yolla dəf edə bilər: Allaha iman gətirərək Şeytandan Allaha sığınaraq Şeytandan gələn vəsvəsəni kəsərək , onun barədə düşünməməklə.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee